**UOT 316.33**

# AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN ƏSAS İDEOLOJİ İSTİQAMƏTİ KİMİ

**Əliyar Orucov**
Fövqəladə Hallar Nazirliyinin Akademiyası,
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
orucov.aliyar@mail.ru
DOI:10.30546/ifs.2021.1(36).82

**Xülasə.** Məqalədə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətləri sosioloji aspektdən araşdırılmışdır. Qeyd edilmişdir ki, azərbaycançılıq ideyası qədim dövrlərdən indiyədək xalqımızın ictimai təfəkküründə təhlükəsizliyi təmin edən səfərbəredici və birləşdirici fenomendir. Müstəqillik dövründən azərbaycançılıq milli-dövlətçilik ideologiyası olaraq Azərbaycanı mədəni-mənəvi təhdidlərdən qoruyan, milli təhlükəsizliyinə xidmət edən, ölkəmizi yüksək və təhlükəsiz inkişaf edən dövlətlərdən birinə çevrilməsinə geniş imkanlar açan bir ideologiyadır. Məqalədə 44 günlük Vətən Müharibəsində azərbaycançılıq ətrafında birləşən milli azlıqların nümayəndələrinin də iştirak etdiklərindən, onların vahid vətənləri olan Azərbaycanın 30 ildən artıq işğal altında olan torpaqlarını azad etmələri, ölkəmizin milli təhlükəsizliyini qorumaları, ərazi bütövlüyünü təmin etmələri, Qarabağdakı hərbi əməliyyatlarda şəhid, qazi və qalib olduqlarından, Azərbaycan Respublikasının bütün vətəndaşları kimi hər zaman azərbaycançılıq ideyalarına sadiq qaldıqlarından, Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yanında olduqlarından da bəhs edilir. Müasir dövrdə azərbaycançılıq ideologiyası dövlət ideologiyası olaraq öz təsir dairəsini genişləndirməklə ölkəmizin sosial, siyasi, iqtisadi və mədəni cəhətdən daha da inkişaf etməsinə zəmin yaradır.

**Məqsəd:** Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətlərini tədqiq etmək.

**Metodologiya:** müqayisəli təhlil və sistemli yanaşma.

**Tədqiqatın nəticələri:** Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji əsaslarının sosial-siyasi təhlili aparılmış və müəyyən nəticəyə gəlinmişdir.

**Açar sözlər:** milli təhlükəsizlik, etnik təhlükəsizlik, mənəvi təhlükəsizlik, ideoloji təhlükəsizlik, informasiya təhlükəsizliyi, ideologiya, azərbaycançılıq ideologiyası, dövlətçilik, vətənçilik, konsepsiya, doktrina.

## АЗЕРБАЙДЖАНСКАЯ ИДЕОЛОГИЯ, КАК ГЛАВНОЕ ИДЕОЛОГИЧЕСКОЕ НАПРАВЛЕНИЕ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Алияр Оруджов**

**Резюме:** В статье рассматриваются идеологические направления национальной безопасности Азербайджанской Республики с социологической точки зрения. Было отмечено, что идея азербайджанства с древних времен является мобилизующим и объединяющим явлением в общественном сознании нашего народа. С момента обретения независимости азербайджанство, как идеология национальной государственности, защищало Азербайджан от культурных и духовных угроз. Эта идеология, которая служит национальной безопасности и открывает широкие возможности для нашей страны стать одной из высоких и безопасных развивающихся стран. В статье также отмечено участие представителей национальных меньшинств, объединившихся вокруг азербайджанства в 44-дневной Отечественной войне. В освобождении своей общей Родины - Азербайджана, находящегося под оккупацией более 30

лет, для защиты национальной безопасности нашей страны, для обеспечения ее территориальной целостности, все граждане Азербайджанской Республики всегда были привержены идеям азербайджанства. Шахиды, ветераны, победители боевых действий в Карабахе были с победившим верховным главнокомандующим Ильхамом Алиевым. В наше время идеология азербайджанства, как государственной идеологии, расширила сферу своего влияния, создавая основу для дальнейшего политического, экономического и культурного развития.

**Цель:** изучить идеологические направления национальной безопасности Азербайджанской Республики.

**Методология :** сравнительный анализ и системный подход.

**Результаты исследования:** социально-политический анализ идеологических основ национальной безопасности Азербайджанской Республики и определенный вывод.

**Ключевые слова:** национальная безопасность, этническая безопасность, моральная безопасность, идеологическая безопасность, информационная безопасность, идеология, азербайджанская идеология, государственность, патриотизм, концепция, доктрина.

## AZERBAIJANI İDEOLOGY AS A MAİN İDEOLOGİCAL DİRECTİON OF NATİONAL SECURİTY OF THE REPUBLİC OF AZERBAIJAN

**Aliyar Orujov**

**Abstract:** The article examines the ideological directions of national security of the Republic of Azerbaijan from a sociological point of view. It is noted that the idea of Azerbaijanism has been a mobilizing and unifying phenomenon in the public mind of Azerbaijani people since ancient times. Since the independence, Azerbaijanism as an ideology of national statehood has protected Azerbaijan from cultural and spiritual threats,serving national security, It is an ideology that opens wide opportunities for our country to become one of the high and secure developing countries. in the 44-day Patriotic War representatives of national minorities united around Azerbaijanism also took part in the liberation of their common homeland, Azerbaijan, which has been under occupation for more than 30 years, to protect the national security of our country, to ensure its territorial integrity, having shehida, veterans and victors in the military operations in Karabakh, As all citizens of the Republic of Azerbaijan they have always been committed to the ideas of Azerbaijanism, President of the Republic of Azerbaijan, it is also said that they were with the victorious Supreme Commander-in-Chief Ilham Aliyev. İn modern times, the ideology of Azerbaijanism as a state ideology has expanded its sphere of influence, creates the basis for further political, economic and cultural development.

**Purpose:** to study the ideological directions of the national security of the Republic of Azerbaijan. **Methodology:** comparative analysis and system approach.

**Scientific novelty:** a socio-political analysis of the ideological foundations of the national security of the Republic of Azerbaijan and a certain conclusion.

**Keywords:** national security, ethnic security, moral security, ideological security, information security, ideology, Azerbaijani ideology, statehood, patriotism, concept, doctrine.

### Giriş/ Introduction

Müasir dövrdə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətlərindən, daha doğrusu, ideoloji təhlükəsizlikdən bəhs edərkən qeyd etmək lazımdır ki, bu təhlükəsizlik şəxsiyyət, cəmiyyət və dövləti daxili və xarici informasiya proseslərindən və xalqın şüuruna, intellektual idraki sferalara mənfi-dağıdıcı, təhrif olunmuş, dezinformasiya təsirlərindən qoruyur. İdeoloji təhlükəsizilik müəyyən milli ideologiyanı- azərbaycançılığı, onun dəyər, qanun və qaydalar sistemini, mədəni-mənəvi ideyaların reallaşmasını təmin edir. Azərbaycan Respublikasının milli

təhlükəsizliyinin ideoloji istiqamətlərində ideologiyaların operativ modernləşməsi, hərtərəfli informasiya təminatı, imperativ normaların tam olmaması, fikir, söz, etiqad, KİV-lərin azadlığı kimi konstitusiya prinsiplərinə riayət edilməsi mühüm yer tutur.

Sosioloji və politoloji refleksiya məkanında azərbaycançılıq ideologiyası milli təhlükəsizlik kontekstində müasir Azərbaycan cəmiyyəti formatında xüsusi aktuallıq kəsb edir.

Beləliklə, məqalənin aktuallığını şərtləndirən əsas amillər aşağıdakılardır:

Birincisi, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsinin sosial əhəmiyyətinin dövlət quruculuğu və sosial-iqtisadi inkişafın radikal dəyişdirilməsi dövründə artması ilə informasiya cəmiyyətinin formalaşması mərhələsində müxtəlif milli-mənəvi dəyərlərlə azərbaycançılıq ideologiyasının inteqrasiyası və qarşılıqlı təsir mexanizmləri məsələsini müstəsna dərəcədə aktual edir.

İkincisi, qloballaşmanın təsirilə mədəni irsə mənfi təsirin, təhdid və təhlükələrin yaranması köhnə və yeni mədəni formalar arasındakı münaqişənin baş verməsi, xaricdən "mədəni təcavüzün" geniş miqyas alması, demokratiya sahəsindəki böhran və şəxsiyyətin yadlaşması problemi cəmiyyətin ideoloji təhlükəsizliyində əsas rol oynayan azərbaycançılığın daha da inkişaf etdirilməsini tələb edir.

Üçüncüsü, milli-dövlətçilik ideologiyasının azərbaycançılığın sosial imperativi kimi təsbit olunması cəmiyyətin ideoloji təhlükəsizliyini təmin edən amil kimi çıxış edir.

## Əsas hissə/Main part

### Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətində azərbaycançılığın yeri və rolu

Milli təhlükəsizliyinin əsasını təşkil edən ideoloji istiqamətlərin ümumi nəzəri məsələlərini R.Aron, K.Popper, F.Fukuyama, F.Hayek, L.Alekrusser, ideologiyanı xüsusi fenomen kimi K.Qirs, S.Jijek, M.Fuko araşdırmışlar. Cəmiyyətin bütün sahələrində təhlükəsizlik problemini və risklərin şüurlu idarə olunmasını Z.Bauman, U.Ben, N.Luman və O.Qizyens kimi Qərb alimləri tədqiq etmişlər.

Rusiyalı alimlər milli təhlükəsizlik fenomenini, onun baza anlayışlar aparatını, inkişafla, ideologiya ilə qarşılıqlı münasibətlərini tədqiqat obyektinə cəlb etmişlər. A.Belov, O.Belov, V.Klimova, A.V.Kozlova milli təhlükəsizliyin metodoloji əsaslarını, onun mənəvi dayaqları və amillərini, obyekt və subyektlərini, A.S.Axiezer, L.V.Qudkov, V.V.Zotova, S.İ.İsayeva, A.Y.Flier və başqaları milli ideologiya, mənəvi və mədəni təhlükəsizlik məsələlərini tədqiq etmişlər. Milli təhlükəsizliyin ideoloji istiqamətləri olaraq mənəvi, humanitar, əqli təhlükəsizlik məsələləri işıqlandırılmışdır.

Azərbaycan alimlərindən R.Mehdiyev, İ.Həbibbəyli, C.Eyvazov, N.Şəmsizadə, S.Xəlilov, C.Xəlilov milli təhlükəsizliyin ideoloji istiqamətlərində əsas yer tutan azərbaycançılığın müxtəlif aspektlərini araşdırmışlar.

Azərbaycan Respublikasının milli təhlükəsizliyin ideoloji istiqamətlərinin müxtəlif aspektləri sosial humanitar elmlərdə kifayət qədər araşdırılıb. Lakin Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətləri sosioloji elm sahəsində nəzərdən keçirilməmişdir.

Məqalənin elmi yeniliyinin əsas elementləri aşağıdakılardan ibarətdir:

1. İdeologiyanın milli təhlükəsizlik kontekstində öyrənilməsinin nəzəri yanaşmaları aşkar olunmuş və sistemləşdirilmişdir. Bunlar Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətlərini aktuallaşdırmağa və sosioloji diskurs məkanında müvafiq konsept müəyyən etməyə imkan verir.

2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətlərinin öyrənilməsi məqsədi ilə müəllifin metodoloji konstruktu formalaşdırılmışdır.

3. Azərbaycan cəmiyyətində yeni çağırışların təsiri altında ideoloji məkanda azərbaycançılığın transformasiyasının mahiyyəti ilə əlaqədar yeni biliklər əldə edilmişdir.

4. Azərbaycanda formalaşan milli təhlükəsizliyin ideoloji istiqamətlərində azərbaycançılığın ideoloji məkanda keçmiş və müasir dəyərlərin funksional əhəmiyyəti təhlil edilmiş, ideoloji nəzarət vasitəsi kimi göstərilmişdir.

5. Azərbaycan cəmiyyətinin sabit ideoloji məkanında xarici informasiyaya ideoloji təsirlər, milli təhlükəsizlik strategiyasında ideoloji təhlükəsizlik istiqamətlərinin resursları və potensialı, müasir şəraitdə azərbaycançılıq milli-dövlətçilik ideologiyası səciyyəndirilmişdir.

Azərbaycan cəmiyyətinin və dövlətinin milli təhlükəsizliyinin ideoloji istiqamətlərində azərbaycançılıq milli-dövlətçilik ideologiyası mühüm amil kimi çıxış edir. Bu ideologiya inteqrativ, birləşdirici xarakter daşıyır. Həmin inteqrativ ideologiya xalqın təcrübəsinin məhsulu olan yeni normaları və qaydaları dəyər yönümündən əsaslandırır. Azərbaycançılıq ideologiyası milli-siyasi, milli-sosial ideya kimi təhlükəsizlik ideologiyasıdır, milli mədəniyyətdə cəmiyyətin birləşdirici dünyagörüşüdür. "Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası müasir beynəlxalq təhlükəsizlik sistemində ciddi rola və yerə malikdir. Beynəlxalq təhlükəsizlik sistemində fəal iştirakçıya çevrilməklə Azərbaycan Respublikası öz milli təhlükəsizliyinin səmərəli təmin edilməsi üçün də unikal imkanlar əldə etmişdir" [2, 257]. Bu imkanların reallaşmasında azərbaycançılıq ideologiyası həlledici amil olmuşdur.

Azərbaycan Respublikasının milli-ideoloji təhlükəsizliyinin təmin olunmasının, azərbaycançılığın ümumi və xüsusi prinsipləri mövcuddur. Ümumi prinsiplər qanunçuluq, şəxsiyyət, cəmiyyət və dövlətin həyati mühüm maraqlarının balansına riayət olunması, ideoloji təhlükəsizliyin təmin edilməsinə məsuliyyət daşınmasıdır. Akademik R.Mehdiyev milli ideologiya ilə aşılanmış vətəndaşlığın dövlətin öz tərəqqisini, təhlükəsizliyini, ərazi bütövlüyünü, nəsillərin və milli ruhun varisliyini təmin etmək səylərinin əsas amilinə çevrildiyini göstərir: "Tarixi inkişafın mənasını, intellektual fenomeni və mədəni irsi özündə birləşdirən azərbaycançılığı bu gün belə təsəvvür edirik. Belə ideologiya millətin birliyinə, onun ruhunun əzəmətinə və sosiumun fəaliyyətinin məqsədyönlülüyünə çalışaraq gələcəyə körpümüz olmağa qadirdir. Dövlət siyasətinin strategiyası olan azərbaycançılıq dolğun ideologiyanın bütün keyfiyyətlərini qazanır, Azərbaycan xalqının bugünü və gələcəyinin qavranılması və qiymətləndirilməsini müəyyən edir. Milli dövlət öz suverenliyini qorumağa, milli rifahın maksimum səviyyəyə çatmasına nail olmağa çalışır və s., məhz belə qavrama prizmasından yanaşaraq vurğulamaq lazımdır ki, müasir Azərbaycan dövləti öz vətəndaşlarının təhlükəsizliyini təmin etməyə və onların sosial rifahına təminat verməyə qadirdir" [7, 25].

Azərbaycançılığın xüsusi prinsipləri bütün ideoloji təhlükəsizlik təsisatı üçün xarakterikdir. Onlar aşağıdakılardan ibarətdir: İdeoloji plüralizm sistemində azərbaycançılıq, milli dövlətçilik ideologiyasının yer tutması; Dini, milli bərabərlik və mədəni müxtəlifliyə hörmət; Aşkarlıq, tolerantlıq; İqtisadiyyatın ideoloji stimullaşdırılmasının ideologiyaların iqtisadi stimullaşdırılması ilə birləşdirilməsi; Cəmiyyətin iqtisadi və mənəvi inkişafının təmin edilməsi; Azərbaycan mədəniyyətinin özünəməxsusluğuna və çoxcəhətliliyinə hörmət və xarici təcrübənin ağıllı əxz olunması. "Millət- Azərbaycan, milli ideya, dövlətçiliyin sivil ideya modeli-azərbaycançılıq! - iki əsrlik nəzəri-ideoloji fikrimizin yekunu, sonuc qənaəti bu gün bu iki düsturla formulə edilir" [6]. Buradan belə qənaətə gəlmək olar ki, azərbaycançılıq ideologiyasının tarixi zəmini təhlükəsizlik ideyası kimi min, min beş yüz il və daha qədimlərə gedib çıxır.

Milli təhlükəsizliyin əsas istiqamətləri mənəvi-intellektual, informasiya, etik, mədəni, ideoloji təhlükəsizlikdir. Müasir geosiyasi şəraitdə mənəvilik milli təhlükəsizliyi təmin edən əsas amillərdən biridir. Mənəvi təhlükəsizlik unikal ictimai fenomen kimi müasir geosiyasi rəqabət şəraitində və fəal informasiya-psixoloji qarşıdurma dövründə milli təhlükəsizliyin təmin olunmasında əsas rol oynayır. "Milli təhlükəsizliyin tərkib hissəsi olan mənəvi təhlükəsizlik cəmiyyət və dövlətin informasiya, elmi-təhsil, mədəni, dini və ideoloji sahələrdə təhdidlərdən qorunması vəziyyətini səciyyələndirir" [17, 22].

Mənəvi təhlükəsizlik etnik, dini, intellektual təhlükəsizliklə qarşılıqlı əlaqədə milli təhlükəsizliyinin əsas istiqamətlərini təşkil edir.

Mənəvi təhlükəsizlik zamanı aşağıdakılar nəzərdə tutulur:

Tarixi-mədəni irsin bərpası və qorunub saxlanması; Mədəniyyətlərin milli özünəməxsusluqlarının inkişafına yardım edilməsi; Sağlam mənəvi sərvətlərin, idealların və ənənələrin formalaşdırılması; Vətəndaşlıq və vətənpərvərliyə, sərbəst yaradıçılığa hörmət edilməsi, tərəqqiyə cəhd olunması, şəxsiyyət, cəmiyyət və təbiətin qarşılıqlı anlaşmasının ahəngdarlığı yolunun axtarılması; Xalqlararası və millətlərarası mədəni əlaqələrin genişlənməsi və mədəniyyətlərin qarşılıqlı zənginləşməsi.

Etnik təhlükəsizlik "ictimai şüurda millətin, bir dövlətdə yaşayan müxtəlif milli azlıqların "bir dövlət - bir millət – bir xalq" prinsipinə uyğun daxili millətlərarası münasibətlər quran sosial birlik kimi həkk olunmasıdır" [15, 358]. Buradan aydın olur ki, etnik təhlükəsizlik ictimai və fərdi şüurda vahid Vətənə yönəlmiş millətlərarası ünsiyyət mədəniyyətinin formalaşdırılmasıdır, müəyyən bir ərazidə yığcam yaşayan müxtəlif etnosların milli maraqlarının qorunmasıdır.

XX əsrin sonlarında dəyişikliklər nəticəsində cəmiyyətin ideoloji məkanında mono ideologiyadan ideoloji müxtəlifliyə keçid baş verdi. Postsovet Azərbaycanında azərbaycançılıq milli-dövlətçilik ideologiyasına çevrildi, milli təhlükəsizliyin ideoloji istiqamətlərində mühüm yer tutdu.

İdeoloji təhlükəsizlik siyasi təhlükəsizliyə əsaslanır. Dövlət hakimiyyəti müasir cəmiyyətdə ideoloji təhlükəsizliyin başlıca obyekti olub aşağıdakı məqamlarla şərtlənir: "Birincisi, müəyyən dəyər, ideya və prinsiplərin məcmusu əsasında dövlət hakimiyyətinin sistem kimi səmərəli fəaliyyəti öz elementlərinin mövcud qarşılıqlı əlaqələrinin möhkəmlik dərəcəsinin zəruriliyi təmin edilir. İkincisi, dövlət hakimiyyətinin fəaliyyəti onun ideoloji mühitinin şəraitinə tabedir. Üçüncüsü, dövlət hakimiyyəti bütövlükdə dövlətin ideoloji təhlükəsizliyinin təmin olunmasının əsas amili kimi çıxış edir" [16, 153]. Müəyyən ideya prinsip və dəyərlərin məcmusu, dövlət və onun iradəsi, vətəndaşların cəhdləri dövlət hakimiyyətinin fəaliyyətinin zəruri şərtidir. İdeologiyanın zəifləməsi dövlətin məhv olmasına gətirib çıxara bilər.

Bir sözlə, ideoloji təhlükəsizlik dövlət hakimiyyətinin sistem kimi keyfiyyətidir. Dövlətin və cəmiyyətin milli təhlükəsizlik strategiyasında ehtiyatlar və potensiallar vasitəsilə ideoloji təhlükəsizliyin təmin edilməsi modernləşmə və onun tərkib hissəsi olan sosiomədəni transformasiyalarla sıx əlaqədardır.

Milli təhlükəsizlik haqqında 2004-cü il iyunun 29-da Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu Qanunda milli təhlükəsizliyin ideoloji istiqamətləri öz əksini tapmışdır: "O, bir tərəfdən ölkənin etnik-milli birliyinin təminatıdırsa, digər tərəfdən ümumi müqəddəs məsləkə nail olmaq üçün dövlətin təhlükəsizliyini ehtiva edir, milli həmrəyliyin vahid məqsəd naminə səfərbəredici ideoloji gücünə çevrilir. Bu güc milli təhlükəsizliyin təmin olunması baxımından əsas istiqamətləndirici amil rolunu oynaya bilər. Təbii ki, bu ideya istər hərbi gücün, istərsə də siyasi, iqtisadi gücün təşkiledici mayası sayılır. Azərbaycançılıq ideyası geosiyasi parametrlərimiz nöqteyi-nəzərindən araşdırıldıqda labüd olaraq müəyyən zaman anlamında siyasi vasitəyə çevrilir" [4, 155-156]. Deməli, milli təhlükəsizliyi təmin etmək üçün azərbaycançılığı inkişaf etdirmək lazımdır. Bir sözlə, azərbaycançılıq Azərbaycanda dövlətin, cəmiyyətin və vətəndaşların təhlükəsizliyini təmin edən fenomendir.

Azərbaycançılıq təhlükəsizlik məsələlərində də milli maraqlara cavab verir və bu ideya dövlətin təhlükəsizliyinin əsas komponentidir. Azərbaycançılıq bütün ölkənin milli təhlükəsizliyini təmin edən milli birlik və stabillik ideologiyasıdır. Azərbaycançılığın bir ideologiya kimi təşəkkülünü publisistika ilə, ədəbiyyatla, mədəniyyətlə əlaqələndirən İ.Həbibbəyli onun siyasi ideologiyaya və dövlətçilik proqramına çevrilməsini Heydər Əliyevin fəlsəfi konsepsiyası ilə əlaqələndirir, daha doğrusu, ümummilli liderin kəşfi hesab edir. Ədəbiyyat və dövlətçilik probleminə də bu istiqamətdə yanaşır. Akademik İsa Həbibbəylinin nəzəri görüşlərində ədəbi təsir probleminin yenidən dəyərləndirilməsi, miqyasının genişlənməsi məsələsi ilə bağlı irəli sürdüyü müddəalar və fikirlər də diqqəti cəlb edir. Onun üçün təsir təkcə ənənə və ədəbi əlaqədən ibarət deyil. Problemə həm ənənəvi, həm də müasir multidissiplinar mövqedən yanaşan alim əlaqə probleminin aspektlərinin xeyli genişləndiyini müşahidə edir və özü yeni üfüqlərin daha da açılması üçün elmi, əməli fəaliyyət göstərir [8, 1].

Azərbaycan Respublikasının milli təhlükəsizliyi dedikdə onun obyektlərinin, yəni insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin olunması başa düşülür. "Bu 3 amilin, həm insanın - onun hüquq və azadlıqlarının, cəmiyyətin - onun maddi və mənəvi dəyərlərinin, həm də dövlətin - onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyünün müdafiəsi demək, Azərbaycan Respublikasının milli maraqlarının qorunması deməkdir. Qanunda, xüsusilə də onun 6-cı maddəsində Azərbaycan Respublikasının milli maraqları ilə bağlı müddəalar geniş şəkildə öz əksini tapmışdır. Burada göstərilənlərə əsasən onu qeyd etmək olar ki, Azərbaycan Respublikasının milli maraqları həm ölkəmizin, həm də xalqımızın maraqlarını özündə ehtiva edir. Azərbaycan xalqının maraqları onun məqsədlərinin, habelə müxtəlif sahələrdə olan tələbatlarının cəmidir. Burada Azərbaycan Respublikasının milli maraqları dedikdə, Azərbaycan xalqının milli dəyərləri başa düşülməlidir. İstinad olunan müddəaya əsasən ölkəmizin müxtəlif sahələrdə, yəni siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, elm, mədəniyyət və mənəviyyat sahələrində əsas milli maraqları vardır" [19].

Göründüyü kimi, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında müxtəlif amillər, o cümlədən nəzarət, məsuliyyət, ideoloji təhlükəsizlik əsas rol oynayır. "Azərbaycan Respublikası ümumdünya mədəniyyətinin qloballaşması meyillərindən kənarda qalmamaq şərtilə, milli mədəniyyətin özünəməxsusluğunu qoruyur və eyni zamanda dünyanın mədəni nailiyyətlərindən milli mədəniyyətin tərəqqisində istifadə üçün imkanlar yaradır" [20].

Beləliklə, azərbaycançılıq müqəddəs milli ideyadır - xəlqilik, vətənpərvərlik və təhlükəsizlik ideologiyasıdır. Azərbaycançılıq cəmiyyətdə birliyi möhkəmləndirmək, sabitlik yaratmaq, azlıqlara mehribanlıq və birgəyaşayışı yaratmaqla ölkədə təhlükəsizliyin təmin olunmasına xidmət edir. Deməli, ölkəmizdə bütün milli azlıqların və titul xalqın mənafeyini ifadə edən azərbaycançılıq ideologiyası Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətlərinin optimal bazasını təşkil edir.

Azərbaycançılıq vətənpərvərlik və tolerantlıq ideyaları ilə vəhdətdə olub milli təhlükəsizliyimizin ideoloji istiqamətlərindən biri kimi özünü göstərir. "Azərbaycançılıq vətənçilik ideyasının cəmiyyətdə tam bərqərar edilməsi üçün hüquqi-ideoloji, mənəvi-psixoloji bazanın daha da möhkəmləndirilməsi lazım gəlir ki, bu da milli-dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquq bərabərliyinin təmin edilməsi, ayrı-seçkiliyə, dini dözümsüzlüyə yol verilməməsi ilə mümkündür" [5, 73]. Deməli, burada Azərbaycanın milli təhlükəsizliyinin ideoloji istiqamətlərində vahid azərbaycançılıqdan, mədəniyyət, din, mənəviyyat, dil, ərazi birliyindən, milli və dini tolerantlıqdan müxtəlif millətlər arasında yaxınlıqdan, vətənpərvərlikdən, xalqların monalit birliyindən gedir.

Azərbaycançılığın ideologiya və məfkurə olaraq mənəvi təhlükəsizlik məsələləri ilə bağlılığından danışarkən "milli-mənəvi dəyərlərin hər cür aşınmadan qorunması vəzifələri, tolerantlıq və mədəniyyətlərin dialoqu şəraitində milli özgürlüyünü saxlamaq və onu daha da inkişaf etdirmək və azərbaycançılıq sferasına daxil olan məsələlər" önə çəkilir [12, 8].

Müstəqillik dövründə ümummilli lider Heydər Əliyev azərbaycançılığın əsas cəhətləri olaraq ümumbəşəri və milli mənəvi dəyərlərin vəhdətini, sintezini, xalqımızın mənəviyyətinın qorunması və zənginləşdirilməsi olduğunu göstərir. Azərbaycançılığı müstəqil Azərbaycan dövlətinin əsas ideologiyası hesab edən Heydər Əliyev deyirdi: "Biz azərbaycançılığı Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" [3, 308]. Deməli, Ulu Öndər azərbaycançılığı geniş təsir gücünə, təhlükəsizliyi təmin etməyə qabil olan, ölkəyə, dövlətə, cəmiyyətə və xalqa məhəbbətdə, sədaqətlə xidmət etməkdə təzahür edən mühüm amil hesab edirdi.

Azərbaycan tədqiqatçısı N.Şəmsizadə azərbaycançılığın strukturuna daxil olan amillərdən bəhs edərək yazır: "Vətənçilik, türkçülük və islamçılıq azərbaycançılıq ideologiyasının dayaqlarıdır. Vətənçilik bütün xalqlar və etnik qrupların demokratik birliyinin, türkçülük dövlət siyasətinin, islamçılıq, inam, iman və əxlaqımızın təməli, şərqçiliyin bağlantısı və rəmzidir. Azərbaycançılığın əsasında ittihadçılıq dayanır. İttihadımızın əsas bağlantıları bunlardır: Gendaşlıq (qandaşlıq) və dindaşlıq! Bunlar azərbaycançılığın əsas prinsipində - vətəndaşlıqda birləşir. Dindaşlıq ittihadçılıq və

vətəndaşlıqda əsas bağlantı formasıdır. Onun ideologiyasını ümmətçilik təşkil edir. İran İnqilabının təcrübəsi bütün dünyaya sübut etdi ki, ümmətçilik Şərq xalqlarında dövlət təşkil etmək qüdrətinə malikdir. Ümmətçilikdə inam və iman birliyi həlledicidir. İnam Tanrıya və dövlətə, iman peyğəmbərə və Qurana üz tutur. Azərbaycançılığın ideoloji əsaslarından olan ümmətçilik ən möhkəm və etibarlı birlik olan əxlaqi birliyin, cəmiyyətin mənəvi kimliyinin təminatçısıdır" [11, 145]. Deməli, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətlərində əsas yer tutan azərbaycançılıq ideologiyası vətənpərvərlik, türkçülük, islamçılıq şəqçiliklə, vətəndaşlıqla vəhdətdə daha güclü amilə çevrilir.

M.Məmmədzadə azərbaycançılığı türkçülüklə vəhdətdə görürdü: "Azərbaycançılıq ideyasını ortaya atmaqla biz heç də türkçülüyü inkar etmirik, ancaq Azərbaycan Vətəni ideyasını birinci yerə keçirir, Azərbaycanın coğrafi sərhədləri daxilində millətin yekdilliyini və vəhdətini birinci dərəcəli vəzifə kimi irəli sürürük" [9, 135]. Müəllif haqlı olaraq azərbaycançılığın vətənçiliyə, milli təhlükəsizliyə və milli birliyə xidmət etdiyini göstərir.

S.Vəliyeva azərbaycançılığın təhlükəsizliyin ideoloji istiqamətlərindən biri kimi praktiki əhəmiyyətini xüsusi qeyd edir: "Azərbaycançılıq ideyasının praktiki mənası Azərbaycan dövlətçiliyinin, Azərbaycan dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərin, mütərəqqi adət- ənənələrin qorunub-saxlanılmasını, əbədi yaşamasını özünün milli və vətəndaş borcu hesab edən insanların yetişdirilməsidir. Elə insanların tərbiyə edilməsidir ki, bu insanlar sadaladığımız dəyərlərlə fəxr edərək, onların qorunması missiyasını nəsildən nəslə ötürsün" [13, 102]. Müəllif azərbaycançılığı dövlətçiliyin, milli mədəniyyətin, millətin və vətəndaşların təhlükəsizliyini əbədi hifz edən bir vasitə hesab edir.

Azərbaycançılıq anlayışının yaranmasında ümumiləşən azərbaycançılıq ideyasının bazasını ictimai təfəkkürün mövcudluğu, milli- mənəvi dəyərlər və müstəqil dövlətçilik ənənələrinin təşkil etdiyini göstərərək M.Yusifov yazır: "Azərbaycançılıq anlayışının özü isə cəmiyyət həyatında çox mühüm ictimai, siyasi, ideoloji və hərəkətverici əhəmiyyət daşıyan milli şüur mənasında başa düşülür. Beləliklə, azərbaycançılıq anlayışının daxili məzmununu qısa olaraq belə xarakterizə etmək mümkündür: azərbaycançılıq ictimai təfəkkürün canlanması ilə yaranan, milli mənəvi dəyərlər bazasında yetkinləşən və müstəqil dövlətçilik ənənələri əsasında formalaşan milli şüurdur. Bu o deməkdir ki, ictimai təfəkkürdə milli ideyalar yaranmasa, milli- mənəvi dəyərlər də meydana gələ bilməz. İctimai təfəkkür bazasında yaranan milli- mənəvi dəyərlər isə dövlətçiliklə qorunur, zənginləşir və inkişaf edir. Dövlətçilik olmadan milli ideyalar ancaq lokal səviyyədə qalmaqla məhdudlaşır. İctimai təfəkkür cəmiyyətlə birlikdə yaşadığı üçün həm tarixidir, həm də müasir" [14, 4].

Beləliklə, milli ideologiya cəmiyyətdə milli birliyi və millətlərarası ümumxalq münasibətləri qorumaq, millətin tarixdə mövqeyini izah və təsdiq etmək üçün yaradılır. Bundan əlavə milli ideologiya xalqın milli-mənəvi varlığının başlıca əlamətlərindəndir. O, xalqın kimliyini göstərən təfəkkür, adət və ənənələr sistemidir. Dil, din, ərazi və ideoloji birlik millət və milli dövlətin tarixi varlığının əsas rəmzləridir. "Milli ideologiya xalqımızın milli idealı olan azadlıq və müstəqilliyin, milli inkişafın təmin olunmasına, ərazi bütövlüyünün qorunub saxlanılmasına xidmət etməlidir. Milli ideologiya xalqın inamının, əqidəsinin, düşüncəsinin mənbəyi və hərəkətverici qüvvəsi kimi milli dövlətçiliyin qorunmasına xidmət edir" [10, 234].

## Nəticə/Conclusion

Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-də başlatdığı 44 günlük İkinci Qarabağ Müharibəsi- Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi uğrunda genişmiqyaslı hərbi əməliyyatlarda azərbaycançılıq ətrafında birləşən milli azlıqların nümayəndələri də iştirak etmişdir. Onlar vahid vətənləri olan Azərbaycanın 30 ildən artıq işğal altında olan torpaqlarını azad etmək, ölkəmizin milli təhlükəsizliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək üçün Qarabağda hərbi əməliyyatlarda şəhid, qazi və qalib olaraq 44 gündə erməni işğalına son

qoydular. Ermənilər ağır itkilər verərək, məğlub oldu. Ölkənin bütün vətəndaşları kimi onlar da azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək hər zaman Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin yanında oldular. Bununla da onlar sübut etdilər ki, Azərbaycan Konstitusiyasında göstərildiyi kimi, azərbaycançılıq "Azərbaycan xalqının vahidliyini, Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir" [1, 5]. Beləliklə, bütün postsovet məkanında "dondurulmuş" münaqişələr arasında yalnız "Dağlıq Qarabağ münaqişəsi" Azərbaycanda iqtidar-xalq-ordu birliyi sayəsində, hərbi-siyasi, diplomatik yolla öz uğurlu həllini tapdı. Bu isə Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıq yaratdı.

Araşdırmalar göstərir ki, milli təhlükəsizliyin ideoloji istiqamətləri ictimai həyatın müxtəlif sahələrini əhatə edən çoxtərəfli prosesdir. Burada mənəvi təhlükəsizlik, əqli, dini, mədəni, etnik, informasiya və ideoloji təhlükəsizlik əsas yer tutur.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətlərində azərbaycançılıq ideologiyası əsas yer tutur. Azərbaycançılıq mütərəqqi birgə yaşayış modeli olaraq müxtəlif xalqların mədəniyyətlərinə və dinlərinə tolerant münasibəti, qarşılıqlı dözümlülüyü ifadə edir. Azərbaycanın milli mədəniyyətini, milli-mədəni dəyərlərini, adət-ənənələrini mühafizə etməklə milli təhlükəsizliyə öz töhfələrini verən azərbaycançılıq ideologiyası millikimliyin inkişaf konsepsiyası kimi də çıxış edir.

Azərbaycançılıq vətənpərvərlik ideyası ilə vəhdət təşkil edir, dövlətçiliyin, onun təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Ölkənin milli təhlükəsizliyinin müdafiəsində azərbaycançılıq ideologiyası milli güc mənbəyi olub etnik-milli, dövlət maraqlarının təminatçısıdır. Hazırkı şəraitdə azərbaycançılıq ideologiyası özündə həm vətənpərvərliyi, həm də dövlətçiliyi ehtiva etməklə aktual əhəmiyyət kəsb edir. Bu gün azərbaycançılıq ideologiyası dövlət quruculuğu və təhlükəsizlik doktrinasdır.

**İstifadə olunmuş ədəbiyyat/References**

*Azərbaycan dilində*

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2018, 92 s.

2. Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: Aypara-3, 2009, 328 s.

3. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı: Səda, 2003, 428 s.

4. Xəlilov C. Milli təhlükəsizlik mənlik şüuru kontekstində. Bakı: Vətən, 2006, 220 s.

5. İbrahimov Ə. Azərbaycançılıq ideyasının konseptual aspektləri. Bakı: Avropa, 2016,180 s.

6. Qarayev Y.Milli mən şüuru və etnik yaddaş-azərbaycançılıq//"Azərbaycan" qəzeti,14-16 fevral 2002-ci il.

7. Mehdiyev R. Azərbaycançılıq- milli ideologiyanın kamil nümunəsi // Multikulturalizm: ədəbi-bədii, elmi-publisistik jurnal, 2016, № 1.

8. Məmməd T. Akademik İsa Həbibbəyli missiyası: azərbaycançılıq, analitiklik, kreativlik // "Şərqin qapısı" qəzeti, 09.10.2019.

9. Məmmədzadə M. Azərbaycan Milli Xartiyası // "Azərbaycan" jurnalı, 1991, N 4.

10. Orucov Ə. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu- XX əsrin əvvəlləri (tarixi-fəlsəfi aspekt). Bakı: Avropa, 2012, 251 s.

11. Şəmsizadə N. Azərbaycançılıq. Seçilmiş əsərləri. Üç clddə. I *cild.* Bakı: Elm, 2008, 560s.

12.Tağıyev Ə. Azərbaycançılıq milli təhlükəsizliyimizin qarantı kimi // Ə.İbrahimovun azərbaycançılıq ideyasının konseptual aspektləri kitabına ön söz. Bakı: Avropa, 2016, s.5-11.

13. Vəliyeva S. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Məsələnin qoyuluşuna dair. Bakı: Azərbaycan Universiteti, 2002, 140 s.

14.Yusifov M. Azərbaycançılıq. Bakı: Elm və təhsil, 2010, 132 s.

*Rus dilində*

15. Natsional'naya bezopasnost' Respubliki Belorus'. Sovremennoye sostoyaniye i perspektivy. Moskva: 2013, 451 s.

16. Poyarkov S.N. Ideologicheskaya bezopasnost' gosudarstvennoy vlasti: ponyatiye i sushchnost' // Istoricheskiye, filosofskiye, politicheskiye i yuridicheskiye nauki, kul'turologiya i iskusstvovedeniye. Voprosy teorii i praktiki. Tambov: Gramota, 2011, №3(9), v 3khch. CH.1, s.152-154.

17.Solodovnik L.V. Ideologicheskaya bezopasnost' rossiyskogo obshchestva v kontekste transformatsionnykh vyzovov sovremennosti. Rostov-na-Donu, 2013, 28 s.

18.Tonkonogov A.V. Dukhovnaya bezopasnost' rossiyskogo obshchestva v usloviyakh sovremennogo sopernichestva (sotsial'no-filosofskiy analiz). Avtoreferat… doktora filosofskikh nauk. Moskva: 2011, 44 s.

*İnternet resursları*

19.Azərbaycan Respublikasının Milli təhlükəsizlik konsepsiyas ı// http://www.e-qanun.az/framework/13373

20.Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanununun əsas müddəaları// http://muvekkil.az/?p=8830

**Göndərilib: 14.12.2020** **Qəbul edilib: 03.03.2021**